AZƏRBAYCAN

26 avqust 2023-cü il

# Yeni "Qarabağnamə"

## Müəllifi Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondudur

*İşıq qüdrətdir - qaranlıqları əridir...*
*İşıq dünyəviliyin yolgöstərənidir...*

İşıqlı insanlar da belədir - işığı nur kimi ömürlərə yayılır, ömürləri xalqın, dövlətin, dövlətçiliyin səyyarəsi olmağa yönəldir. Min illərdi belədir. Zərdüşt Peyğəmbərin yaşam fəlsəfəsi də bu işıqdan yaranır. "Xeyir" ifadəsinin bir yozumu da işıqdı - xeyirli düşüncə işıqdı, xeyirli fikir işıqdı, xeyirli əməl işıqdı; işıqlı adamların düşüncələri qaranlıqları aydınladır, onun xeyirli əməlləri cəmiyyəti işıqlı sabahlara yönəldir, bəşərin dünyaduyumunu durulaşdırır. Belə insanların bu günün hüdudlarını aşan dumduru ömrünün göyqurşağını - işığının qüdrətini necə görməyəsən? Xalq üçün, dövlət üçün, dövlətçilik üçün yaşanılan bu ömrün işığı, ziyası, nuru milyonların ömründədir. Belə insanların həyat fəlsəfəsi "Tanrı verən ömrü sənin üçün yaşayıram, Vətən!" kəlamı ilə ifadə edilmədir. Edilir. Ediləcək də...

Mehriban xanım Əliyeva İ.M.Seçenov adına Birinci Moskva Tibb İnstitutunu fərqlənmə diplomu ilə bitirib. İxtisası etibarilə həkim olan, bu peşəni insanları yaşatmaq niyyətiylə seçən insanın düşüncələrində, həyat, ömür, yaşam fəlsəfəsində də yaşatma çalarları var. Xalq üçün, dövlət üçün, dövlətçilik üçün dediyi hər fikir kəlam qüdrətindədir. "Vətənə ad olmayan illər ömürdən deyil" fikri bəşəri fikirdi, bəşəriyyəti qadalarsız, ağrı-acılarsız yaşatma niyyətinin ifadəsidir. Tolerantlıq budur! "Öz Vətənini sevənlər özgəsinin Vətəninə daş atmaz!" - işıqlı insanlar belə düşünür, belə deyir, dünyəvi düşüncələri bu deyilənlərə yönəldə bilir...

Mehriban xanım Əliyeva Prezident İlham Əliyevin 2017-ci il fevralın 21-də imzaladığı sərəncamla Birinci vitse-prezident təyin edildi. Birinci vitse-prezident hökumətin icraedici strukturunda əhəmiyyətinə görə prezidentdən sonra ikinci məsul şəxsdir. Bu baxımdan Mehriban xanım Əliyevanın dövlətçilik fəaliyyəti bilavasitə dövlətin suverenliyini, sərhədlərinin ciddi mühafizəsini, dövlət orqanlarının, təsisatlarının fəaliyyətinin daha da yüksəldilməsini, bir-birini tamamlamasını və digər işləri əhatələyir.

Milli-mənəvi dəyərlər xalqın tarixinin müəyyən dövrlərində yaranır, ayrılıqda və vəhdətdə min illərlə yaşadıla-yaşadıla qorunur, xalqını sevənlər onları cəfakeşlər kimi qoruyur. Xalqın milli-mənəvi dəyərlərinin bəşəri sərvət kimi qorunmasının cəfakeşi olmasının zəmanəti ilə Birinci vitse-prezident Mehriban xanım Əliyeva qürurla "Mənim xalqım!" deyə bilir.

"Qarabağnamə"lər yazılıb. Hərəsinin öz məndəricəsi var. 2016-cı ilin Aprel döyüşlərindən, İkinci Qarabağ müharibəsindən sonra mənəvi borc kimi yazılan "Qarabağnamə"lərdən birini Mehriban xanım Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fondu yazdı. Bu əsər "Hamımız bir Günəşin zərrəsiyik. Bu Günəş Vətəndi!" deyənlərin Qarabağ ünvanlı könül uvertürasıdı. Bu uvertüra şəhidlərin ruhunun, qazilərin səsidi...

Başlanğıc tarixi dəqiq bilinməyən qədim muğamlarımızın bəşəri heyrətini ümumiləşdirmək, Azərbaycanı dünyanın boyu görünən mədəniyyət ünvanlarından biri kimi tanıtmaq (və sevdirmək!) Azərbaycana Azərbaycan boyda tarixi xidmət olardı. Bu haqda düşünmək də, bu düşüncələri gerçəkləşdirmək kimi duyğular da işıqlı niyyət idi və onu işıqlı insan kimi tanınan (və belə də sevilən!) Mehriban xanım Əliyeva gerçəkləşdirdi. Dünyanın ən böyük konsert salonları Azərbaycan muğamının işığını azərbaycançılıq məfkurəsini, türkçülük ideologiyasını böyük sədaqətlə yaşadan insanın sayəsində gördü, onun vətənsevərliyinin işığında dərk etdi. Buna da qüdrət deyirlər.

2005-ci ildən Azərbaycanda Heydər Əliyev Fondunun dəstəyi ilə muğam müsabiqələri təşkil olunur. Bu gərəkli müsabiqə həm muğamın yaşadılması, inkişaf etdirilməsi, həm də elmi-nəzəri əsaslarla daha məsuliyyətlə inkişaf etdirilməsi konsepsiyasını böyük mənəvi coşqu ilə həyata keçirirdi. Müsabiqə iştirakçılarının ifalarına verilən qiymətlər, əslində, muğamlarımızın mahiyyətinin bir daha xatırladılması, xatırladılaraq yaşadılması niyyəti idi.

İkinci Qarabağ müharibəsi başlayanda xalq Birinci vitse-prezident Mehriban xanım Əliyevanın duyğuları tərpədən, ədalətli müharibəmizdə igid oğullarımızı döyüşə uğurlayan kəlamını da əsgəri çağırış bildi: "Qoy Uca Tanrı hər bir azərbaycanlıya müqəddəs Qarabağ torpağını öpməyi nəsib etsin!" Bu, ana duası idi. Ana duası çağırış idi. Ana duası, ana çağırışı Ali Baş Komandanın sərkərdəliyi ilə düşmənin müdafiə sədlərini darmadağın edən, döyüşə-döyüşə mövqe qələbələri qazanan, böyük qələbəyə yaxınlaşan döyüşçülərimizin döyüş əzminin, qələbə ruhunun səngərdaşı oldu. Mehriban xanımın Vətən adından dediyi kəlmələr də döyüşənlərin qəlbindəydi. Bu da qüdrət kimi yaşadıldı...

Azərbaycan Ordusunun böyük zəfəri ölkəmizin siyasi imicini də yüksəltdi, dünya dövlətlərinin ona ehtiramını da artırdı. Zəfərdən sonra Prezident İlham Əliyevin işğaldan azad edilmiş ərazilərə səfərlərində Birinci vitse-prezident Mehriban xanım Əliyeva da olur, dövlət başçısı ilə birlikdə quruculuq işlərinin başlanğıcında, müxtəlif obyektlərin təməlqoyma mərasimlərində iştirak edir. Bünövrənin qoyulmasında bu səviyyədə iştirak sevginin ifadəsidir, sözlə ifadə edilə bilməyən ana xeyir-duasıdır. Tanrı belə xeyir-duaları eşidir. Mehriban xanımın Şuşada yaşadığı duyğuları sezmək çətin deyildi. Qürur vardı o duyğularda.

Zəfərdən sonra Mehriban xanım Əliyevanın təşəbbüsü, Heydər Əliyev Fondunun təşkilatçılığı və dəstəyi ilə ruhumuzun paytaxtında - Şuşada "Xarıbülbül" Musiqi Festivalı keçirildi. Şuşa səs-səs, avaz-avaz dikəldi, Şuşanın başının üstünü almış duman çəkildi, illərin sıxıntısından qurtaran dağların qırışığı açıldı. "Qarabağ şikəstəsi" yaxınların da, uzaqların da düşüncələrinə bir gerçəklik həkk elədi: Azərbaycan deyiləndə ayağa durun! Qüdrət misallı bu bənzərsizlik Birinci vitse-prezident Mehriban xanım Əliyevanın gerçəkləşən təşəbbüsünün görüntüləriydi...

Şəhidlərə ehtiram Vətənə ehtiramdır. Şəhidlər tanınmadan hamının doğması olur. Şəhidlərin sayı qədər, dağıdılan evlərin, söndürülən ocaqların sayı qədər qəhərimiz var. Şəhid ailələrinə dövlət də, dövlət qurumları da, ictimai təşkilatlar da qayğı göstərir. Heydər Əliyev Fondu Mehriban xanım Əliyevanın təşəbbüsü və rəhbərliyi ilə bu qayğını mənəvi borcödəmə kimi yerinə yetirir. Onun şəhid ailələrinə ziyarətləri onlar üçün mənəvi təsəllidir.

Xeyirxahlığı, Vətənə, xalqa, dövlətçiliyə, dövlətə xidməti həyat fəlsəfəsi bilən Mehriban xanım Əliyeva "Heydər Əliyev mükafatı"na, "Heydər Əliyev" ordeninə layiq görülüb. Bu ali mükafat, bu ali təltif xalqın sevgisi ilə yanaşı dayanır...

***Səbinə XASAYEVA,***
***Milli Məclisin deputatı***